Peşə təhsili müəssisələrinə 2023-2024-cü tədris ili üzrə tələbə qəbulu davam edir.

Peşə təhsili almaq istəyən şəxslər 11 avqust saat 23:59-dək portal.edu.az platformasında qeydiyyatdan keçməklə "Peşə təhsili müəssisələrinə elektron tələbə qəbulu" xidməti vasitəsilə müraciət göndərə bilərlər.

Qəbul prosesi ümumi və ya tam orta təhsil bazasını bitirən şəxslər üçün açıqdır.

Qəbul ərizəçinin attestatında göstərilən müvafiq fənlər üzrə qiymətlərinin orta balı əsasında həyata keçirilir. Hər müraciətçiyə maksimum 5 ixtisas üzrə seçim etmək imkanı yaradılır.

Müraciət edən şəxslərin nəticələri barədə məlumat "Şəxsi kabinetim" bölməsində yerləşdiriləcək, həmçinin onlara nəticələrlə bağlı SMS bildiriş göndəriləcək.

Qeyd edək ki, 28-31 iyul tarixlərində 3 922 şəxs peşə təhsili müəssisələrinə qəbul üçün müraciət edib.